https://doi.org/10.59849/3006-1342.2025.2.14
UOT 94(479. 24)

*Mehman Qəhrəman oğlu Abdullayev*
*Bakı Dövlət Universiteti,*
*Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent*
*E-mail: dos.mehman.abdullayev@gmail. com*
*https://orcid.org/0000-0001-8178-799X*

# XIX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ RUSİYANIN KÖÇÜRMƏ SİYASƏTİNİN AZƏRBAYCANIN İRƏVAN, NAXÇIVAN VƏ ORDUBAD BÖLGƏLƏRİNDƏ ALİ ZÜMRƏNİN TƏRKİBİNDƏ YARATDIĞI DƏYİŞİKLİKLƏR (MÜQAYİSƏLİ-TARİXİ TƏHLİL)

## *Giriş*

Rusiyanın 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra Qacar və Osmanlı imperiyası ərazisindən kütləvi şəkildə erməni əhalisinin köçürülərək, Azərbaycanın İrəvan, Naxçıvan, Ordubad və digər bölgələrində yerləşdirməsi bölgənin etnodemoqrafik vəziyyətinə əsaslı şəkildə təsir göstərmişdir. Köçürülmə prosesinin həyata keçirilməsi həmin bölgələrin ali zümrəsinin say tərkibində ciddi dəyişikliklər yaratmışdır. Azərbaycan tarixşünaslığında erməni köçürülmələrinin Azərbaycanın etnik tərkibinə təsiri ilə bağlı məsələlər geniş şəkildə araşdılısa da, XIX əsrin 20-ci illərinin sonu 30-cu illərin əvvəllərində bölgənin ali zümrəsinin tərkibində baş vermiş dəyişikliklər indiyədək demək olar ki, araşdırılmamışdır.

Azərbaycanın İrəvan, Naxçıvan və Ordubad bölgələrinin əhalisinin sosial sosial tərkibinin araşdırılması müəyyən konkret yanaşma tələb edir. Bu bölgələrin daxil olduğu İrəvan və Naxçıvan xanlıqları 1827-ci ildə rus ordusu tərəfindən işğal edilmiş və 1828-ci il martın 21 də təşkil olunmuş “Erməni vilayəti”nə daxil edilmişdir. Rus müəllifi İ.Şopenin bölgənin tarixinə həsr etdiyi fundamental əsərdə toplanmış çox zəngin statistik sənədlərə görə, “Erməni vilayəti”ndə 752 yaşayış məntəqəsi var idi. II Rusiya-Qacar müharibəsi zamanı (1826-1828-ci illər) bölgədə Azərbaycan türklərinin məskunlaşdığı 359 kənd rus qoşunları tərəfindən kütləvi şəkildə dağıdılıb viran edilmişdi. Bu viran qalmış kəndlərlə (onlardan 310-u İrəvanda yerləşirdi) birlikdə vilayətdə 1111 kənd qeydə alınmışdı [10, s. 510-518].

1820-ci illərin sonlarından başlayaraq Qacar dövlətindən və Osmanlı İmperiyasından köçürülmüş 124 min nəfər ermənin böyük hissəsi çar höküməti tərəfindən bu vilayətdə məskunlaşdırılmışdı ki, bu da regionun demoqrafik və sosial tərkibində ciddi dəyişikliklərə səbəb olmuşdu. Tədqiqatçı E. Qarayevin fikrinə görə, Azərbaycanın İrəvan və Naxçıvan kəndlərinin demoqrafik və sosial strukturunda köçürmə prosesi daha böyük dəyişikliklər yaratmışdır [7, s. 63-64].

Statistik sənədlərə görə, İrəvan, Naxçıvan və Ordubadda 16078 türk-müsəlman ailəsi və ya 81749 nəfər (onlardan 43294-ü kişi, 38455-i qadın) yaşayırdı. Yeri gəlmişkən tədqiqatçı İ.Şopen məsələyə obyektiv şəkildə yanaşaraq, bölgənin erməni sakinlərini “əvvəlcədən məskunlaşmış əhali”, yəni Türkmənçay müqaviləsindən əvvəl köçüb gələnlər hesab etsə də, tərtib olunan statistik sənədlərdə mövqeyini dəyişərək ermənilər haqqında daha çox “yerli əhali” ifadəsini işlətmişdir [6].

1832-ci ilə aid “kameral təsvirləri”nə görə köçürmələr hesabına “Erməni vilayəti”ndə yerləşdirilən erməni ailələrinin sayı 4428-ə və ya 25151 nəfərə (onlardan 13058 kişi və 12093 qadın) çatmışdı. 1828-ci ilə aid statistik sənədə əsasən bölgənin əhalisinin böyük hissəsini-78,4%-ni Azərbaycan türkləri təşkil edirdi. Lakin dörd il ərzində (1828-1832) Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində bölgənin demoqrafik tərkibi kəskin şəkildə

dəyişmişdi. Statistik materiallara görə qısa müddətdən sonra bölgədə yaşayan ailələrin sayı 31 201 -ə və ya 164450 nəfərə (bunlardan 86786-sı kişi, 77 664-ü qadın) çatmışdı. Bu prosesi "demoqrafik partlayış" kimi də qiymətləndirmək olar. Çünki bu süni prosesin nəticəsində Azərbaycan türklərinin əhalinin ümumi tərkibində faiz nisbəti 51,53-faizə enmişdir. Bölgənin yerli əhalisi olmayan ermənilərin sayı isə 2,2 dəfə artaraq 21,6%-dən 48,47%-ə qalxmışdır [8].

1828-1832-ci illərdə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə Qacar dövlətindən 6949 erməni ailəsi və ya 35560 nəfər erməni (onlardan 18837-si kişi və 16723-ü qadın) Osmanlı imperiyasından isə 3682 erməni ailəsi, yaxud 21666 nəfər ( onlardan 11417 kişi və 10249 qadın) köçürülmüşdü. Beləliklə, Qacar və Osmanlı dövlətlərindən köçürülən erməni əhalisinin ümumi sayının 34%-nə çataraq böyük bir rəqəmə çevrilmişdi [10, s. 543-548; 8, s. 31, 82, 191- 192].

İrəvan xanlığı ləğv edildiyi 1828-ci ildə burada yaşayan 12694 ailənin 9196-sı və ya 49875-nəfəri Azərbaycan türkləri, 3498-i və ya 20073 nəfəri isə əvvəllər məskunlaşmış ermənilər idi [4, s. 543-546, 640]. Beləliklə, İrəvan əhalisinin çox böyük hissəsini yerli sakinlər olan Azərbaycan türkləri təşkil edirdi. Həmmüəlliflər tərəfindən nəşr edilmiş "İrəvan xanlığı" kitabında qeyd olunur ki, İ. Şopenin statistikasına görə, xanlığın işğalı zamanı hərbi əməliyyatlar nəticəsində müsəlman türk əhalinin tərk etməyə məcbur qalması ilə boşaldılmış 310 kənddə 38750 əhali yaşamışdı [4, s. 77]. Bu rəqəmi bölgə əhalisinin sayına əlavə etsək, İrəvan bölgəsində əhalinin sayı 107750 nəfərə çatmışdır. Beləliklə, yeni məlumatlara uyğun olaraq, qəti şəkildə göstərə bilərik ki, işğal ərəfəsində İrəvan xanlığının ümumi əhalisinin 82 faizini Azərbaycan türkləri, 18 faizini isə ermənilər təşkil edirdi. Ermənilərə gəlincə, onlar statistik sənədlərdə gah "əvvəlcədən məskunlaşmış əhali", yəni 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən xeyli əvvəl bölgəyə köçmüş yerli olmayan əhali kimi qeyd edilmişdir. 1832-ci ilin statistik məlumatlarına görə erməni ailələrinin sayı 12694-dən 20927-yə çatmışdı. Həmin ildə artıq qeydiyyatda olan 115115 nəfər əhalinin 49875 nəfəri yəni, 43,3%-i Azərbaycan türkləri idi [10, s. 543-548; 638-642]. Beləliklə, Azərbaycan türkləri bölgənin yerli əhalisi olduqları halda öz üstün etnik mövqelərini itirmişdi. 1832-ci ilin statistikasına görə İrəvan bölgəsində İ.Şopenin "yerli" kimi müəyyən etdiyi erməni əhalisi 20073 nəfər (17,43%) təşkil edirdi. Qacar dövlətindən İrəvana 23568 nəfər (20,46%), Osmanlı imperiyasından 21639 ( 18,78%) erməni köçürülüb gətirilmişdi [10, s. 543-548; 638-642].

Rusiyanın ardıcıl köçürmə siyasəti 1828-ci ildə ləğv edilmiş Naxçıvan xanlığının etnik tərkibini tamamilə dəyişdirdi. Rus müəllifi İ. Şopenin tərtib etdiyi statistik məlumatlar göstərir ki, 1832-ci ildə Ordubad da daxil olmaqla Naxçıvanda 41482 nəfər yaşayırdı [10, s. 543-548; 638-642]. Onların 12119 nəfərini və ya 29 faizini yeni məskunlaşdırılmış ermənilər təşkil edirdi. 1828-ci ildən sonra Qacar dövlətindən 11992, Osmanlı İmperiyasından isə cəmi 2 nəfər bölgəyə köçürülmüşdü.

Bütün bunlar göstərir ki, müxtəlif etnik qruplardan ibarət ermənilər özlərini əbəs yerə "Türkmənçayın törmələri" adlandırmırlar [5, s. 93].

Bu qədim türk torpaqlarının Rusiya tərəfindən sürətlə "erməniləşdirilməsi" Azərbaycanın qərb bölgələrində nəinki demoqrafik dəyişikliyə səbəb oldu, həm də cəmiyyətin sosial-iqtisadi vəziyyətinə və sosial təbəqələrinə, bütün aqrar münasibətlərə böyük təsir göstərdi. Gənc tədqiqatçı Elçin Qarayev İrəvan xanlığının tarixinə həsr olunmuş dəyərli kitabında xanlığın müsəlman və xristian ali zümrəsini və onların sayını müəyyən etməyə çalışmışdı. [8, s. 300-305]. Müəllifin tədqiqatı, təbii ki, keçmiş İrəvan xanlığının ərazisi ilə məhdudlaşmışdır, eyni zamanda, müəllif İrəvan, Naxçıvan və Ordubad bölgələrində köçürmələrdən sonra ali zümrənin say tərkibində baş vermiş dəyişikliklərin müqayisəli təhlilini aparmamışdır [8].

Statistik məlumatların təhlili göstərir ki, 1828-ci ildə “Erməni vilayəti”nə daxil olan İrəvan bölgəsində 215 ailə və 1573 nəfər ali zümrə nümayəndəsi yaşayırdı. Həmin ailələrin sayı əhalinin vilayətin ümumi əhalisini 1,08 faizini, İrəvan bölgəsinin müsəlman əhalisinin isə 2,34%-ni təşkil edirdi. Ali zümrənin say tərkibinin kişi və qadınlardan ibarət olmasını nəzərə alaraq nəfərlə hesablasaq, ali müsəlman zümrəsinin (xan, bəy və sultan) ümumi sayı 1573 nəfər olmuşdur. Bu, “Erməni vilayəti” əhalisinin ümumi sayının 1,36%-i, İrəvan bölgəsinin müsəlman əhalisinin 3,15%-i deməkdir [10, s. 543-548; 638-64].

1832-ci ilin məlumatlarına görə, İrəvan bölgəsində müsəlman ruhani zümrəsinə məxsus olan 331 ailə və ya 1912 nəfər yaşayırdı və ailə hesabı ilə bu rəqəm “Erməni vilayəti” nin ümumi əhalisinin 1,58%-ni, nəfər hesabı ilə 1,66%-ni təşkil edirdi. Müsəlman ruhani zümrəsinin sayı İrəvan bölgəsinin müsəlman türk əhalisinin tərkibindəki xüsusi çəkisi ailə hesabı ilə 3,60 %-ə, nəfər hesabı ilə 3,83%-ə bərabər idi.

İrəvan bölgəsində ali zümrə nümayəndələrinin ruhanilərlə birlikdə sayı 546 ailə yaxud 3483 nəfər idi. Bu ailə hesabı ilə vilayətin əhalisinin 2,61 %-i, nəfər hesabı ilə 3,03%-i deməkdir. Bu rəqəmin İrəvan bölgəsinin müsəlman-türk əhalisinə nisbəti isə bütün ailələrin 5,94%-inə, nəfər hesabı ilə isə 6,99% -nə bərabər idi [10, s. 543-642; 690-692].

1832-ci ildə kameral siyahıyaalma materiallarına görə, Ordubad da daxil olmaqla, keçmiş Naxçıvan xanlığının xan, bəy və sultan titulu daşıyan ali zümrənin sayı 177 ailədən və ya 1166 nəfərdən ibarət idi. Bütün əhalinin (40482 nəfər) 2,88%-ni ali zümrənin nümayəndələri təşkil edirdi. Statistik göstəricilərə əsasən, müsəlman ruhani zümrəsi ümumi müsəlman əhalisi arasında 5538 ailədən (24385 nəfər) ibarət idi. Statistik məlumatlara əsasən, ali müsəlman ruhani zümrəsi 1368 nəfər və ya 279 ailədən ibarət idi [6].

XIX əsrin əvvəllərində Cənubi Qafqazın demoqrafik və sosial strukturunu əks etdirən statistik məlumatlar, xüsusilə İrəvan, Naxçıvan və Ordubad bölgələrinin etnik və sosial tərkibinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. İ. Şopenin 1852-ci il tarixli əsərində təqdim olunan Kameral təsvirlər, bölgədəki müxtəlif sosial qrupların, o cümlədən dini xadimlərin və yuxarı təbəqənin say nisbətlərinə dair dəyərli məlumatlar verir.

Müsəlman din xadimlərinin vilayətin ümumi ailə sayına nisbəti 2.57%, əhalinin sayına nisbəti isə 3. 38% təşkil etmişdir. Keçmiş xanlıqlarda bu göstəricilər daha yüksək olmuşdur: din xadimlərinin ailə sayına düşən faizi 5. 04%, adambaşına isə 5.61% idi [10, s. 543-548; 638-642, 690-692].

1832-ci il Kameral təsvirlərinə əsasən, keçmiş Naxçıvan bölgəsində ali müsəlman zümrəsinin, o cümlədən ruhanilərin sayı 456 ailə və ya 2534 nəfər idi. Bölgədə ailələrinin ümumi sayına nisbətdə onların 4. 19%-i ali zümrəyə aid olmuş, adambaşına hesablamada isə ali zümrənin çəkisi 6. 26%-ə bərabər idi. Yuxarı təbəqənin müsəlman ailələrinə nisbətdə ümumi faiz nisbəti 8. 23%, adambaşına düşən hesablamada isə 10. 39% təşkil edirdi.

Bir ərazinin yerli xalqının və ya etnosunun varlığı onun ali zümrəsinin mövcudluğu ilə müəyyən edilir. Cəmiyyət ali zümrə tərəfindən təşkil olunur; əgər bir xalqın öz ali zümrəsi yoxdursa, onun dövlətçiliyi də yoxdur. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının ləğv edildiyi ildə Qacarlar sülaləsi tərəfindən verilən bəy titulu cəmi 5 erməni ailəsinə məxsus idi. XIX əsrin əvvəllərində, xüsusən 1828-ci ildə ermənilərin İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə köçürülməsindən sonra onların sayı kəskin şəkildə artmış, eyni zamanda ali zümrənin sayının nisbi artmasına səbəb olmuşdur. 1832-ci il Kameral siyahıyaalınması İrəvan və Naxçıvan bölgələrində erməni ali zümrəsinin və xristian ruhanilərinin sayını müəyyən etməyə imkan verir.

İrəvanda cəmi 22 erməni məlik və ağa ailəsi yaşayırdı. “Erməni vilayəti” ndə erməni ailələrinin sayı 20927 nəfər olduğu halda, ali zümrənin faizi bu rəqəmə nisbətdə cəmi 0.1% təşkil edirdi. Məlik və ağaların 22 ailəsi 205 nəfərdən ibarət idi və bölgədə əhalinin ümumi sayı 115151 nəfər olması nəzərə alınsa, bu əhalinin yalnız 0.17%-i erməni ali zümrəsinə aid

idi. Əksəriyyəti sonradan köçürülmüş olan erməni ali zümrəsinin bölgənin əhalisinin ümumi sayına nisbətdə əhəmiyyətli bir çəkisi yox idi. Əvvəllər məskunlaşmış və yeni köçürülmüş erməni ailələrinin sayı 11736 və ya 65280 nəfər olmuşdur. Erməni ali zümrəsinə məxsus ailələrin ümumi sayı erməni ailələrinin 0.18%-ni və nəfər hesabı ilə isə 0.35%-ni təşkil edirdi [10, s. 690-691].

İrəvan bölgəsində erməni ruhanilərinin sayı məlik və ağaların sayından çox idi ki, buna səbəb 1441-ci ildən etibarən İrəvan bölgəsində Üçkilsə katedralının yerləşməsi idi. Erməni ruhaniləri 193 ailə və ya 1454 nəfərdən ibarət idi. Ailələrin sayına görə erməni din xadimlərinin faizi 0.92%, əhalinin ümumi sayına görə isə 1.26% təşkil etmişdir. Bu rəqəmlər vilayətin erməni əhalisinə nisbətdə müvafiq olaraq 1.64% və 2.22% olmuşdur.

Naxçıvana gəldikdə, ermənilərin əyalətə kütləvi şəkildə köçürülməsindən əvvəl cəmi 15 məlik və ağa ailəsi (109 nəfər) qeydə alınmışdı. Xanlıqlar dövründə Azərbaycan ali zümrəsinin sayı bölgədəki hakim zümrənin 81% təşkil edirdi. Erməni ali zümrəsi ailələrin ümumi sayına görə 0.17%, adambaşına düşən ümumi saya görə isə 0. 36% təşkil edirdi. O dövrdə Naxçıvanda 8538 ailə və ya 30507 nəfər yaşayırdı. Naxçıvan bölgəsində bu 8538 ailənin 2145-i yeni köçən erməni ailələri təşkil edirdi [5]. Başqa sözlə, Naxçıvan quberniyasının ümumi əhalisi 30507 nəfər olub, onun təxminən 1/3 hissəsi (10679 nəfər) Rusiya imperiyası tərəfindən köçürülüb gətirilən erməni əhalisidir. Əksəriyyəti yeni məskunlaşan erməni əhalisinin tərkibində ali zümrənin erməni ailələrinin sayına nisbətdə faizi 0.56%, adambaşına isə 0.81% təşkil edirdi. Erməni din xadimlərinin vilayətdəki bütün ailələrin sayına nisbətdə 0.54%, Naxçıvan bölgəsinin əhalisinin ümumi sayına nisbətdə isə 0. 95% təşkil edirdi. Erməni din xadimlərinin erməni ailələrinin sayına və Naxçıvan vilayətinin erməni əhalisinə nisbətdə nisbəti müvafiq olaraq 1.72% və 0.95% olmuşdur [9].

İrəvan və Naxçıvan quberniyalarından fərqli olaraq, Ordubad şəhərində erməni məlik, ağa və erməni ruhaniləri haqqında ayrıca məlumat yoxdur. 1832-ci il siyahıya alınmasına əsasən, Ordubad dairsəində 2325 ailə və ya 10975 nəfər yaşayırdı. Qəzada cəmi 11 erməni məlik və ağa ailəsi (109 nəfər) qeydə alınmışdır. Bu məliklərin və ağaların bütün ailələrin və bütün əhalinin sayına nisbəti müvafiq olaraq 0.47% və 1.09% olmuşdur. Erməni yuxarı təbəqəsinin erməni əhalisinə nisbəti müvafiq olaraq 1.69% və 3.22% təşkil etmişdir. Ordubad dairəsində cəmi 22 erməni ruhani ailəsi (152 nəfər) qeydə alınmışdır. Erməni ruhanilərinin bölgənin bütün ailələrin sayına nisbəti 0.95%, əhalinin ümumi sayına görə isə 1.38% təşkil edirdi [10, s. 691-692].

1832-ci il siyahıyaalınmasına əsasən, İrəvan və Naxçıvan və Ordubad dairəsindən ibarət "Erməni vilayəti"ndə 214 məlik və ağa ailəsi (434 nəfər) qeydə alınmışdı. Erməni məlikləri və ağalarının ailələrin vilayətin ümumi əhalisinin sayına nisbəti 0.37%, bütün əhaliyə nəfər hesabı ilə nisbəti isə 0.26% təşkil etmişdir. Vilayətdə 1895 nəfərdən ibarət 261 erməni ruhani ailəsi var idi. Ailələrin ümumi sayına nisbətdə erməni din xadimlərinin faizi 0.84%, vilayətin bütün əhalisinə nisbətdə isə 1.15% təşkil etmişdir.

İ. Şopenin məlumatına görə, vilayətdə zadəgan titulu olan 3171 nəfər yaşayırdı. Hər 10 min nəfər müsəlman əhalisinin 335 nəfəri ali zümrənin nümayəndəsi idi. Ermənilərdə isə ali zümrədə bu nisbət 52-yə bərabər olmuşdur [10, s. 691]

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın digər xanlıqları rus işğalından sonra köçürmə prosesinə məruz qalmadığından həmin bölgələrin etnik və sosial tərkibi elə bir ciddi dəyişikliyə məruz qalmamışdır. Ali zümrənin tərkibindəki dəyişikliklər isə öz təbii axarında getmişdir. Statistik məlumatların təhlilinə görə, Quba xanlığı ləğv edilərkən 5363 həyətdən ibarət idi və bunun 77-si bəylərə, xanlığın zadəganlarına məxsus idi. Bu o deməkdir ki, onlar ümumi əhalinin 1,4%-ni təşkil edir. Əvvəlkilərə yuxarı müsəlman ruhaniləri olan axundların sayını (63 və ya 1,17%) əlavə etsək, yuxarı təbəqə üçün ümumilikdə 2,6% təşkil edir. Axundlara baxmayaraq, xanlıqda seyidlər, mollalar və xristian ruhaniləri də (cəmi 2 ailə)

mövcud idi ki, bu da yuxarı təbəqənin ümumi sayını 250 həyət, onun xüsusi çəkisini isə 4,7% müəyyən edir. Bakı xanlığı ləğv edilərkən 6007 həyət qeydə alınmışdır ki, onlardan 140-ı və ya 2,3%-i bəy sinfinə aid idi. Seyidin 275 nəfəri, mollanın isə 346 nəfəri (cəmi 612 nəfər) Bakıda və 34 şəhərətrafı kənddə yaşayırdı. Belə ki, xanlığın yuxarı təbəqəsi onun ümumi əhalisinin 1,3%-ni təşkil edirdi. Bakıda xristian ailələri haqqında heç bir qeyd yoxdur [6, s. 653; 7, s. 41; 3, s. 71-72; 1, s. 164-165].

### *Nəticə*

Araşdırılan statistik sənədlərin təhlili belə bir ümumi nəticə çıxartmağa imkan verir ki, Rusiya hökuməti tərəfindən Qacar və Osmanlı dövlətlərindən erməni əhalisinin İrəvan və Naxçıvan bölgələrinə kütləvi şəkildə köçürülməsinə baxmayaraq, müsəlman ali zümrəsinin sayı erməni əyanlarının sayından 6 dəfə çox idi. Bu inkarolunmaz fakt, Azərbaycan türklərinin və onların ali zümrəsinin İrəvan, Naxçıvan və Ordubad bölgələrinin yerli əhalisi olduğunu sübut edən əsas dəlillərdən biri hesab olunur.

### ƏDƏBİYYAT

1. İbişov S.Ə. Quba xanlığı:əhalisi, tarixi və azadlıq mücadiləsi. Bakı, 2012.
2. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Müəlliflər kollektivi. Elmi redaktoru Y.M.Mahmudov. 2010.
3. Mustafazadə T. T. Quba xanlığı, Bakı, “Elm”, 2005.
4. Qarayev E. (2010). İrəvan xanlığı (1747-1828). Bakı: Avropa nəşriyyatı.
5. Şükürov K. (2006). Türkmənçay - 1828. Tarixi xronika. Bakı: Çaşıoğlu.
6. Акты Кавказской Археографической комиссии. Под ред. А.Берже, т. IV, док. 1009, Отношение ген. Тормасова к гр. Румянцову, отъ 22-го июня 1810 года, № 96, Тифлис, 1870, с. 653.
7. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII в. Баку, Изд-во АН Азерб. ССР, 1948.
8. Статистическое описание Нахичеванской провинции, составленное В.Григориевым. Санктпетербургь. Въ Типографии департамента Внишней Торговли, 1833.
9. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911. Книга по Требованию. Bakı, “Azərbaycan nəşriyyatı”, 2011.
10. Шопен И.И. Исторические памятники состояния армянской области в эпоху ее присоединения к Российской империи. СПб. Тип. Имп. Акад. Наук. 1852.

УДК 94(479. 24)

*Мехман Гахраман оглы Абдуллаев*
*Бакинский Государственный Университет*

## ИЗМЕНЕНИЯ В СОСТАВЕ ВЫСШЕГО ГРАЖДАНСКОГО СОСТАВА В ИРЕВАНСКОМ, НАХЧЫВАНСКОМ И ОРДУБАДСКОМ РЕГИОНАХ АЗЕРБАЙДЖАНА В 20–30-Е ГОДЫ XIX ВЕКА (СРАВНИТЕЛЬНО-ИСТОРИЧЕСКИЙ АНАЛИЗ)

### *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджанские ханства, высший класс, Ireванское ханство, Нахчыванское ханство, Армянская провинция

В исследовании анализируется численный состав представителей высшего сословия в Губинском, Нахчыванском и Иреванском ханствах Азербайджана и их доля

в общей численности населения на основе статистических документов. Основное внимание уделяется переселенческой политике, которая была частью колониальной политики царской России на Южном Кавказе в начале XIX века. Массовое переселение армян из Османского и Каджарского Ирана в Иреванскую и Нахчыванскую области искусственно увеличило численность населения в этих областях и кардинально изменило демографическую ситуацию. Численность христианских армян, которые ранее составляли меньшинство, значительно возросла в результате этих переселений.

В статье подробно рассматривается этнический состав населения региона, в частности, изучаются изменения в численном составе высшего сословия в регионе. Одним из главных нововведений исследования является исследование численности как мусульманских, так и христианских высших сословий и духовенства, а также определение их доли в общей численности населения региона. Это считается первой подобной попыткой в историографии. В статье также уделяется особое внимание последствиям политики Российской империи, направленной на ослабление позиций мусульманского духовенства в Иреванском и Нахчыванском регионах.

UDC 94(479. 24)

*Mehman Gahraman Abdullayev*
*Baku State University*

## CHANGES IN THE COMPOSITION OF THE HIGHER CIVIL ELEMENTS IN THE IRAVAN, NAKHCHIVAN AND ORDUBAD REGIONS OF AZERBAIJAN IN THE 20-30S OF THE 19TH CENTURY (COMPARATIVE-HISTORICAL ANALYSIS)

*SUMMARY*

*Key words:* Azerbaijani khanates, upper class, Iravan Khanate, Nakhchivan Khanate, Armenian province

The study analyzes the numerical composition of the upper class representatives in the Guba, Nakhchivan and Iravan khanates in Azerbaijan and their proportion in the general population based on statistical documents. The main focus is on the resettlement policy, which was part of the colonial policy of Tsarist Russia in the South Caucasus at the beginning of the XIX century. The mass resettlement of Armenians from Ottoman and Qajar Iran to the Iravan and Nakhchivan regions artificially increased the population in these areas and drastically changed the demographic situation.

The number of Christian Armenians, who previously constituted a minority, increased significantly as a result of these resettlement. The article takes an in-depth look at the ethnic composition of the region's population, specifically examining the changes in the numerical composition of the upper class in the region. One of the main innovations of the study is the investigation of the number of both Muslim and Christian upper classes and clergy, as well as the determination of their share in the total population of the region. This is considered the first such attempt in historiography. The article also pays special attention to the consequences of the Russian Empire's policy aimed at weakening the position of Muslim clergy in the Iravan and Nakhchivan regions.

**Daxil oldu: 23.06.2025-ci il**